# Türk dünyası ortaq dil, oxşar mədəniyyət, eyni adət-ənənə

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ankarada Azərbaycan Prezidenti İlham Əliyevlə birgə mətbuat konfransı zamanı bildirib ki, Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşü bu il iyul ayında Şuşada keçiriləcək. Türkiyə Prezidenti deyib: "Ailə məclisimiz olan Türk Dövlətləri Təşkilatındakı birliyimizin daha da təsisatlanması və güclənməsi üçün çalışmaqda davam edirik. İyul ayında Təşkilatımızın fövqəladə Zirvə görüşünün türk dünyasının mədəniyyət paytaxtı Şuşada keçirilməsi ilə əlaqədar xüsusilə məmnunluğumu bildirmək istəyirəm".**

Şuşada Türk Dövlətləri Təşkilatının dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşünün keçirilməsi barədə qərar 2023-cü il noyabrın 3-də Astanada Türk Dövlətləri Təşkilatının "Türk Əsri" çağırışı altında keçirilən 10-cu yubiley Zirvə görüşündə verilib.

**(davamı 3-cü səhifədə)**




# Türk dünyası - ortaq dil, oxşar mədəniyyət, eyni adət-ənənə

(əvvəli 1-ci səhifədə)

Şuşa Zirvə görüşünün xüsusi özəlliyi budur ki, Şimali Kipr Türk Cümhuriyyətinin Prezidentinin də tədbirə qatılması gözlənilir. Bu barədə Prezident İlham Əliyev bildirib ki, Türk Dövlətləri Təşkilatının Şuşada keçiriləcək qeyri-rəsmi zirvə toplantısında Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti də iştirak edəcək və bu, türk xalqlarının birliyinə güclü təkan verəcək.

Azərbaycanın xarici siyasət gündəliyinin əsas prioritetlərindən biri Türk Dövlətləri Təşkilatının və əməkdaşlığın gücləndirilməsidir. Qeyd edək ki, TDT spesifikliyi ilə seçilən beynəlxalq təşkilatdır. Digər regional təşkilatlarda olduğu kimi, TDT yalnız üzv dövlətləri birləşdirən ümumi baxış, qarşılıqlı maraqlar və ya inteqrasiyadan ibarət deyil. Bu təşkilat ortaq soy-kökə, dilə, mədəniyyətə və adət-ənənələrə əsaslanır. Məhz buna görə də TDT-yə üzv ölkələr arasındakı əlaqələr qardaşlıq münasibətlərini ifadə edir.

Ölkəmiz türk dünyasının birliyinə töhfə verməyə hazır olduqlarını bildirmişlər.

2019-cu ilin oktyabrın 15-də Bakı şəhərində TDT-nin 7-ci Zirvə görüşü keçirilmiş, həmin görüşdə Özbəkistanın təşkilata üzvlüyü təsdiq edilmişdi. Bu Zirvə görüşündən sonra təşkilata sədrlik növbəti Zirvə görüşünədək Azərbaycan Respublikasına keçmişdi.

2021-ci il noyabrın 12-də İstanbulda TDT-nin 8-ci Zirvə görüşündə təşkilata sədrlik Azərbaycandan Türkiyə Respublikasına həvalə edilmişdir. TDT-nin 8-ci Zirvə görüşü zamanı təsdiq olunmuş "Türk Dünyası Baxışı 2040" sənədində Azərbaycanın işğaldan azad olunmuş Qarabağ bölgəsinin "yaşıl enerji" zonasına çevrilməsi işlərində TDT-yə üzv dövlətlərin "Bir millət, iki dövlət" fəlsəfəsinə əsaslanan Azərbaycan-Türkiyə qardaşlığı digər türkdilli dövlətlər üçün də nümunəvi örnəkdir.

Türk dövlətləri arasında ikitərəfli və çoxtərəfli formatda əməkdaşlıq müntəzəm və sistemli şəkildə davam etdirilir, zaman keçdikcə daha da möhkəmləndirilir. Hazırkı geostrateji vəziyyət bu istiqamətdə inkişaf üçün əlverişlidir və türk dövlətləri arasında münasibətlərin keyfiyyətcə yeni mərhələyə daxil olması üçün ən münasib şərait mövcuddur. Xəzər dənizi, Qara dəniz və Aralıq dənizini əhatə edən coğrafiyada güclü varlığı ilə geostrategiyanın müəyyənedici elementi olan türk dünyasının yeni qlobal nizamın müəyyən edilməsində mühüm rola sahib olması XXI əsr türk ideologiyasının mal və xidmətlərin dövriyyəsini asanlaşdırır, həmçinin istehsal və ixrac qabiliyyətini artırır.

Bunu da xüsusilə qeyd etmək lazımdır ki, TDT heç bir quruma, hər hansısa birliyə və ölkəyə qarşı qurulmuş təşkilat deyil. Bu təşkilat yalnız türk dünyasını birləşdirmək, onu daha da yüksək səviyyədə inkişaf etdirmək üçün vasitədir.

Hazırda beş dövlət - Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistan Türk Dövlətləri Təşkilatının daimi üzvüdür. Şimali Kipr Türk Respublikası, Türkmənistan və Macarıstan isə TDT-də müşahidəçi qismində təmsil olunur. Bu siyasi-iqtisadi və hərbi birlik gələcəkdə türk dövlətlərinin birləşdirilməsində mühüm rol oynayacaq. Ölkəmiz üçün bu təşkilatın dünyasının intellektual potensialının gücləndirilməsi, təhsil sahəsində qarşılıqlı əlaqə və qabaqcıl təhsil təcrübələrinin bütün türk dövlətlərinin təhsil sistemlərinə inteqrasiyası mühüm faktorlardandır. Həmçinin türk dünyası regionunda müasir dövrün çağırışları qarşısında koordinasiyalı ümumi informasiya məkanının yaradılması və kibertəhlükəsizlik sahəsində səmərəli fəaliyyətin və əməkdaşlığın təmin edilməsi də mühüm vəzifələrdəndir. Türk mədəni irsinin qorunması və təbliği, eləcə də bu irsin beynəlxalq səviyyədə tanıdılması istiqamətində birgə fəaliyyətin həyata keçirilməsi və müvafiq beynəlxalq təşkilatlarda bu məsələdə ortaq mövqe nümayiş etdirilməsi çox vacibdir. Dövlət başçılarımızın siyasi iradəsi imkan verir ki, bu istiqamətlər üzrə TDT-nin gücləndirilməsinə və konkret nəticələrin əldə olunmasına yönəlmiş fəaliyyət həyata keçirilsin. Dövlətlərimizin və xalqlarımızın birgə fəaliyyəti nəticəsində birliyimizin güclənməsi türk dünyasını aparıcı güc mərkəzlərindən birinə çevirir.

**Bayram SALMANOV,**
**"Respublika".**